# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 322** **Bakı şəhəri, 28 iyun 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin normativ qiymətі haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 301 (Cild I) ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə ləğv edilsin.

**2.** 3-cü hissəyə "6 zonaya," sözlərindən sonra "Abşeron rayonu 3 zonaya," sözləri əlavə edilsin və həmin hissədə "Əli Bayramlı" sözləri "Şirvan" sözü ilə əvəz edilsin.

**3.** 5-ci hissədə "altında yerləşən" sözləri "yerləşdiyi" sözü ilə əvəz edilsin.

**4.** 6-cı hissədə "Sərbəst torpaq" sözləri "Torpaq" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***